# Bir ömür xatırlanacaq görüş...



**Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 11-də Bakıdakı 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərimizlə görüşüb. Yaralı hərbçilərimiz qarşısında çıxış edən dövlət başçımız qürur, fəxarət və səmimiyyətlə ürək sözlərini bölüşüb: “Əziz hərbçilər, Vətən müharibəsi başa çatdı. Azərbaycan bu müharibədə parlaq qələbə qazandı, torpaqlarımız işğaldan azad olundu, işğalçıları torpaqlarımızdan qovmuşuq. Mən gəlmişəm ki, bu parlaq qələbə münasibətilə sizi şəxsən təbrik edim, sizə öz təşəkkürümü bildirim, Azərbaycan xalqının təşəkkürünü bildirim ki, siz qəhrəmancasına döyüşərək, düşmənin torpaqlarımızdan qovulmasında müstəsna xidmətlər göstərmisiniz, yaralanmısınız, öz həyatınızı risk altına atmısınız, böyük şücaət göstərmisiniz”.**

Görüşdə iştirak edən yaralı hərbçilərimiz bütün döyüşən hərbçilərimizi təmsil edirdilər. Deməliyik ki, şanlı ordumuzun Ali Baş Komandanı müalicə olunan hərbçilərimizin timsalında bütün Silahlı Qüvvələrimizin, Silahlı Qüvvələrimizin timsalında ölkə vətəndaşlarının, dünya azərbaycanlılarının görüşünə gəlmişdi. Yaralı hərbçilərimiz qarşısındakı o tarixi çıxış “Hamıya, hamıya, hamıya!” şüarı ilə də qəbul edilə bilər. Dost sevindi, düşmən xar oldu! “Əziz keçmiş köçkünlər, siz artıq köçkün deyilsiniz. Mən onlara bizim bu qəhrəman əsgər və zabitlərimizin hüzurunda müraciət edərək deyirəm: Siz köçkün deyilsiniz, siz qayıdırsınız. Biz sizi qaytaracağıq. Bax, burada oturanlar, bizim minlərlə əsgər və zabitlərimiz sizi öz doğma dədə-baba torpaqlarınıza qaytarırlar. Biz Azərbaycan dövləti isə əlimizdən gələni edəcəyik ki, sizi tezliklə qaytaraq”. Bu sözlər cənab Prezidentə aiddir. 44 günlük Azərbaycan Böyük Vətən Müharibəsi günlərində hərb meydanı ilə yanaşı diplomatik–siyasi meydanda mübarizəyə bilavasitə rəhbərlik edən, nüfuzlu xarici media orqanlarına 30-a yaxın müsahibə verən, nümayəndə heyətlərini qəbul edən, çoxsaylı telefon görüşmələri keçirən cənab Prezident artıq nəticələri, məntiqi sonluğu öz əsgər və zabitləri ilə bölüşürdü.

1 saylı Kliniki Tibbi Mərkəzdəki görüş öz səmimiyyəti, məmnuniyyəti, olanların ümumiləşdirilməsi, olacaqların bildirilməsilə bir başqa gözəllik saçırdı. Fikir verin, tam da bu günlərdə düşmən cəbhəsində nələr baş verir? Onların ali baş komandanı nəinki hərbçilər qarşısında çıxış edə bilir, heç harada olduğunu açıqlaya bilmir, rəsmi iş yerinə gələ bilmir. Öz xalqına, dünya ictimaiyyətinə ənənəvi erməni yalanları və özünəməxsus yeni hiylələrlə o qədər etibarsızlıq ovqatı aşılayıb ki, artıq nə etsə də, öz əleyhinə çevrilir. Guya, “demokrat” Paşinyan Sorosun siyasi layihəsiydi, indi İrəvanın mərkəzində Soros fondunun qərargahı ermənilər tərəfindən dağıdılır. Guya, “yenilməz erməni ordusu”nun komandanıydı, o ordunun beli qırılıb, nə sağalda, nə aparıb basdırmağa belə ehtiyac duymurlar. Ortalıqda yiyəsiz qalıb.



Öncəki aylar – illər qalsın bir yana, Ermənistanın hərbi - siyasi rəhbərliyi 44 gün müddətində siyasili, hərbçili o qədər yalan danışıblar ki, indi o yalanlar gün üzünə çıxdıqca, erməni ictimaiyyəti əsl şok yaşayır. Doğrudur, Paşinyan, onun kimi düşünən bəziləri görünür ki, hələ də yalan danışmaq limitinin tükənmədiyi qənaətindədirlər. Üçtərəfli Birgə Bəyanatın mahiyyətini təhrif etməyə, guya, Ermənistanın nəsə əldə etdiyi illüziyasını yaratmağa xırdaca cəhdlər edilir, lakin bu xırdalıqlar “böyük Ermənistan” xülyalıların ruhi tarazlığını təmin etmək gücündə deyil. Qatar gedib və ona heç bir stansiyada bilet satılmır.

“Qatar gedib” demişkən, Bakı – Mincivan – Naxçıvan dəmir yolu xətti üzrə hərəkət edəcək qatara bilet alacağımız günlər yaxındadır. Burada qatar gedəcək də, gələcək də... Birgə Bəyanatın 9-cu bəndində oxuyuruq: “Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir”. Yeri gəlmişkən, Bəyanatın, xüsusilə “5-ci bənd”in Ermənistanda, dünya erməniliyində hələ çox müzakirə ediləcəyi şübhəsizdir.

Şübhəsizdir ki, “Münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəz yaradılır” bəndinə uyğun olaraq, qardaş Türkiyənin masaya və sahəyə daxil olması ermənilərin heç arzulamadığı, amma rəsmən qəbul etdiyi bir gerçəklikdir. “Rusiya Qarabağda hansı anlayış çərçivəsində olacaqsa, bizim də oradakı müşahidə və yoxlama qruplarımız eyni anlayışla yerini alacaq.” Bu, qardaş Türkiyənin Cümhurbaşqanı cənab Rəcəb Tayyib Ərdoğanın sözüdür. Artıq Rusiya – Türkiyə müqaviləsi imzalanıb. Heç təsadüfi deyil ki, Azərbaycan Prezidenti 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərimizlə görüşdə qardaş ölkə ilə bağlı yenə xüsusi məhəbbətlə danışdı: “Türkiyənin siyasi və mənəvi dəstəyi bu qələbənin qazanılmasında çox böyük rol oynamışdır. Çünki Prezidentin, “Qardaşımın ilk saatlardan dediyi “Azərbaycan tək deyil, Türkiyə onun yanındadır” sözləri bir çoxlarının bu münaqişəyə müdaxilə cəhdlərini alt-üst etdi. Bütün bu dövr ərzində həm Prezident, həm nazirlər, vəzifəli şəxslər daim bizə öz dəstəyini ifadə etmişlər. Görürsünüz, nə qədər heyətlər gəlir. Deməli olar ki, hər həftə Türkiyədən bir neçə heyət gəlir. Türkiyədən bizə dəstək və həmrəylik nümayişi Azərbaycan xalqı tərəfindən yüksək qiymətləndirilir. Əlbəttə, görüş televiziya kanallarında, internet mediasında yayımlanıb, çap mediasında dərc edilib və vətəndaşlarımız, dünya azərbaycanlıları, Azərbaycanı sevənlər, Azərbaycanın sevdikləri, dostumuz da, dost ola bilməyənlər də o görüş, görüşdəki tarixi çıxış, çıxışdakı ismarıclar barədə məlumat əldə edib, necə deyərlər, hər kəs öz könlü qədər yanaşır bu görüşdəki tarixi çıxışa.

Biz bir daha yaralı hərbçilərimizin tezliklə sağalmasını uca Tanrıdan diləyirik! Dövlət başçımızın da dediyi kimi, fədakar həkimlərimiz fədakar hərbçilərimizin öz sağlamlıqlarına qovuşması üçün nə mümkünsə edib, edir və edəcək. Fürsətdən istifadə edərək, qlobal pandemiya ilə mübarizə fonunda, ön cəbhədə yaralanmış hərbçilərimizin bir an öncə öz sağlamlıqlarına qovuşması uğrunda gecə-gündüz çalışan həkimlərimizə könül dolusu təşəkkürlərimizi yetirirəm. Əlbəttə, ən böyük təşəkkürlər Ali Baş Komandanımız başda olmaqla, bizə tarixi qələbə, qürur və sevinci yaşadan Müzəffər Ordumuzadır!

Şəhidlərimizin ruhuna əbədi ehtiram!

***Qənirə PAŞAYEVA,***
***Milli Məclisin Mədəniyyət Komitəsinin sədri***